# Hədis və mühəddis haqqında risalə

Heç şübhəsiz ki, təkcə İslam dinində deyil, bütün səmavi dinlərdə hədisin, yəni səmavi kitabı insanlara çatdran Tanrı elçisinin və xəbər gətirənin kəlamları çox önəmlidir. Qurani Kərim dəfələrlə "Allaha və Peyğəmbərinə itaət edin" cümləsini gətirməklə bir mənalı olaraq Allahın kəlamı - Quranla yanaşı, Peyğəmbərin kəlamı - hədisə də eyni əhəmiyyəti verir. Başqa cür ola da bilməz, çünki peyğəmbərlərin buuyurduqları Allahın buyurduqlarıdır. Allah insanlarla mələk vasitəsiylə göndərdiyi ayələr, yaxud elçisinə hər hansı vasitəylə göndərdiyi xəbərlər - hədislərlə danışılır. Odur ki, İslam dinində qəbul olunan əsas dini mənbə kimi Quran və Sünnənin olması həm məntiqi, həm dini baxımdan tam doğrudur. Əlbəttə Sünnə Peyğəmbərin kəlamılarından - hədislərindən əlavə onun etdikləri və təsdiqlərinə də aid edilir. Peyğəmbərlə yanaşı onun Əhli-beytinə də inanclı olan müsəlmanlar məsum imamları, on dörd məsumun hamısının hədislərinin, əməllərinin və təsdiqlərinin də Sünnədən hesab edirlər. Əlbəttə bu inanc özü də, Quran ayələrinə, Peyğəmbərin söylədikləri, etdikləri və təsdiqinə əsasəndir. Çünki, İmam Əli və Fatimeyi Zəhradan ta İmam Mehdiyədək olan bütün məsumların söylədikləri Peyğəmbərin kəlamları, onun öyrətdikləridir, bu kəlamlar silsilə ilə zaman-zaman açıqlanıb, yəni onlar Rəsulullahın sözündən başqa bir hədis danışmayıblar, onların sözü Quran və Peyğəmbərin sözü ilə eyni olub. Bu barədə dini kitablarda geniş yazılıb və biz burada həmin mövzunu müzakirə etməyəcəyik.

**Quranın və Hədisin tarixi**

eynidir, çünki İslam Peyğəmbərin bu ilahi məqama seçilməsiylə - ilk ayənin nazil olmasıyla başlayırsa, hədisin başlanğıc nöqtəsi də elə həmin andandır. Hz. Muhəmməd peyğəmbərliyə seçilən gündən onun bütün dedikləri hədisdir. Peyğəmbər ayə nazil olandan Quaran ayələrindən, öz peyğəmbərliyindən, İslamdan danışıb, yəni Quran ilə hədisin tarixi bir yerdə başlayır. Tarixdə Quran katibləri kimi hədis katiblərindən də söz açılır. Məsələn Hz. Əli İslamın ilk illərindən həm Quran və həm də hədsi katibi idi. Bu barədə hələ geniş söz açacağıq.

**Həqiqət budur ki,**

hədisi ayədən ayırmaqla, böyük bir yanlışlıq başlayıb, yuxarıda qeyd etdiklərimizə əlavə edək ki, bu gün məzhəblərin çoxluğundan şikayət edənlərin ən böyük səhvi də elə budur. Əslində Quranı hədisdən ayırmaqla, hədis və sünnə dedikdə yalnız Peyğəmbəri nəzərdə almaqla, hətta bir müddət hədisi ümumiyyətlə qadağan etməklə məzhəblər formalaşdı. İmam Mehdiə qədər olan təqribən 300 ilə yaxın Peyğəmbər və Əhli-beytinin sünnəsini - hədis, fel və təqriri bir zamanlar qadağan etməklə, daha sonra kənara qoymaqla böyük İslam maarifindən uzaqlaşdırıldı və nəticədə, fitnələr, ixtilaflar, məzhəblər yarandı. Altıncı hicri ilində müsəlman olub, cəmi 18 bəzi mənbələrə görə 21 ay Peyğəmbəri görüb, sonra Bəhreynə köçən və bir də Rəsuli Əkrəm vəfat edəndən sonra Mədinəyə qayıdan Əbu Hüreyrədən 5374 hədis gətirənlər, amma elə həmin mənbələrdə uşaqlıqdan ta dəfn olunana qədər Peyğəmbər yanında olan, onun tərbiyəsilə böyüyən, İslamı ilk qəbul edən, tənha qızının həyat yoldaşı, fəziləti haqqında onlarla ayə və hədislər, tarixi faklar olan əmisi oğlu Əli bin Əbu Talibdən cəmi 537 hədis gətirənlər məzhəbçiliyə yol açdılar. Əhli-beyt maarifindən uzaq düşmək sözsüz ki, məzhəbçiliyə və ixtilafa yol açacaqdı.

**Hədsi unuduanlar**

o kəslərdir ki, Qədir-Xum hadisəsini, onun mesajını tərk etdilər, ömrünün son günlərində Hz. Muhəmməd söylədiyi vəsiyyətini yazmağı göstəriş verəndə bunu etmədilər, nəticədə təbii ki, parçalandılar, bununla da müsəlmanlar ümmət kimi formalaşa bilmədilər. Əslində məzhəbçilik Qədir-Xumun ilahi göstərişlərini tərk etməklə, İslam Peyğəmbəri ölüm yatağında olan zamandan başladı. Qədir-Xumdakı ilahi təyini kənara qoyan müsəlmanlar bu günə kimi Peyğəmbərdən sonrakı rəhbərliyin necə olması haqqında vahid qərara gələ bilməyiblər. Peyğəmbər özündən sonra rəhbərliyə kimisə təyin etdi və ya etmədi, ümumiyyətlə bu proses necədi? Peyğəmbərdən sonrakı ümmətə rəhbərlik özünün elan etdiyi ilahi təyinlədi, ya, müsəlmanların ümumi seçkisiylədi, ya, xəlifənin müəyyən etməsiylədi, ya, şura seçkisiylədi, ya, da Əməvi və Əbbasilər dönəmində olduğu kimi monarxiya qaydasıyla? Bu suallar onlar tərəfindən hələ də cavabsız qalıb. Qədir-Xumu kənara qoymaqla birinci raşidi xəlifəsini ümumi müsəlmanlar seçdi, ikinci raşidi xəlifəsini birinci xəlifə təyin etdi, üçüncü raşidi xəlifəsini altı nəfərlik şura seçdi. Dördüncü raşidi xəlifəsi kimi İmam Əlini müsəlmanlar seçdi, amma o bu seçkini, haqqının özünə qaytarılması kimi qəbul etdi və bildirdi ki, Qədir-Xumda Peyğəmbər məni ilahi təyinlə xəlifə seçmişdi və siz mənim bu haqqımı əlimdən almışdınız, 25 il sonra isə çarəsiz qalıb özümə qaytardınız. Çünki üçüncü

raşidi xəlifəsi xalqın qiyamı nəticəsində qətlə yetirilmişdi və xilafətdə xaos yaranmışdı. Müsəlmanlar hal belə olanda çarəsizlikdən Peyğəmbərin Qədir-Xumdakı buyurduqlarını həyata keçirmək niyyətinə düşdülər. İmam Əli "Ruhbə" hədisində bu barədə özü danışır. Odur ki, Peyğəmbərdən sonrakı ümmətə rəhbərlik barədə vahid ideya, fikir, söz yalnız Əhli-beyt maarifində dəqiqdir. Yalnızbu maarifdə müsəlmanlar bu rəhbərliyinin ilahi təyinlə olduğunu və Peyğəmbərin bunu müəyyən etdiyini, Qiyamətə qədər olacaq rəhbərlərin sayının yəhudilikdə 12 hakim, məsihilikdə 12 həvari olduğu kimi, İslamda da 12 imam olduğunu qeyd edirlər. Xülasə ümmət ola bilməyən müsəlmanların bəzisinə görə Sünnə - yalnız İslam Peyğəmbərinin hədisi (söylədikləri), feli (etdikləri) və təqriri (təsdiqi)dir. Digərlərinə görə isə İslam Peyğəmbəri başda olmaqla on dörd məsumun hamısına aiddir. Çünki onlar Quran və Peyğəmbərin sözündən başqa heç bir hədisi nəql etməyiblər, etdikləri və təsdiqləri də hakəza.

**Peyğəmbər yazıb - oxumurdu**

və zahirən bu sona qədər də belə oldu. O, Quran Kərim nazil olduqca, təkcə özünün xəbərdar olduğu və vəhy mələyi Cəbrayılın yalnız ona gətidiyi bu ayələri eyni vaxtda bir neçə katibə yazdırırdı. Yəni Ona necə nazil olumbsa o cür də ayəni söyləyirdi və həmin katiblər yazırdı. Əslində bu prizmadan baxanda hər ayə Peyğəmbərin kəlamı ilə bizə çatıb və  hər ayə bir hədisdir. Əlbəttə biz "Peyğəmbərə ayələrin mənası nazil olurdu və o, öz sözləriylə ifadə edirdi" iddiasından uzağıq, ayələr Peyğəmbərə necə, hansı sözlərl və cümlələrlə nazil olurdusa o da o cür onları yazdırırdı. Lakin o vəhyi təkcə özü bilirdi və ayəni başqalarına nəql edən Peyğəmbərdi. Necə ki, sonradan məsumlar da Onun kəlamlarını özü necə söyləmişdisə, insanlara o cür də nəql edirdilər.

**"Hədis" və "xəbər"**

kəlmələrinə dini kitablarda çox rast gəlinir, əlbəttə bəzi alimlər hər iki sözün eyni mənada, yəni Peyğəmbərin söylədiklərinə aid etsələr də, bəzi alimlərə görə bu kəlmələrin fərqi var. "Hədis" Peyğəmbərin söylədiklərinə deyilir. Amma "xəbər" və ya "əxbar" tarix, yəni Peyğəmbərin zamanında baş verənlər və deyilənlər deməkdir. Yəni həmin Peyğəmbərin etdikləri, onunla bağlı baş verənlər, ümumiyyətlə həmin dövrdə Peyğəmbər, Quran, İslamla bağlı hadisələrə deyilir. Əlbəttə  hədis də, xəbər (əxbar) da Peyğəmbər sünnəsini təşkil edən iki mühüm bölümdür, çünki qeyd etdiyimiz kimi sünnə - Peyğəmbərin söylədikləri, etdikləri və təsdiqinə aiddir. Məsələn Şeyx Müfidin "Əl-İrşad" kimi tanınan kitabı həm

xəbər (əxbar) və həm də hədislərdən ibarət Allah hüccətlərini - məsumları tanıtdıran bir tairix kitabıdır. Xülasə hər hədis xəbər ya əxbardır, amma əksi belə deyil.

## Quran katibləri

tarixdə qeyd olunub. Peyğəmbərə nazil olan ayələri yazan bəzi məşhur katiblərin adları: Əli bin Əbu Talib, Əbi bin Kəəb, Zeyd bin Sabit, Əbdullah bin Səəd, Əbdullah bin Məsud və digərləridir ki, qırx nəfərə yaxın əshabın adı katib kimi qeyd olunur. Əlbəttə bunlardan bəzilərinə Peyğəmbər özü katiblik vəzifısini həvalə etmişdi, bəziləri isə özləri öz istəkləriylə Peyğəmbər vəhyi söyləyəndə yazırdılar. Çünki Peyğəmbər hər yeni vəhy gələndə onu əshabına söyləyirdi və özünün müəyyən etdiyi katiblərlə yanaşı digərləri də ayəni qələmə alırdılar. Əlbəttə o zamanki müsəlmanlar Quranı əsasən ayə-ayə nazil olduqca əzbərləyirdilər və eləcə də əzbərdən tilavət edirdilər. Amma bununla belə Peyğəmbər həmişə ayələri ən azı iki nəfərə özü yazdırırdı.

## Quranın raviləri

haqqında da tarixdə qeydlər var, bunlar Müqəddəs Kitabın necə oxunması və tilavət edilməsini rəvayət edənlərə deyilirdi. Quran rəvayətçiləri əsasən Hicri Qəməri İslam təqvimin ikinci yüz illiyində yaşamışdılar və "əsahab"dan deyildilər amma "tabein"dən idilər. Yəni Peyğəmbəri görməmişdilər, amma Hz. Muhəmmədi görənləri görüb onlardan Quranın necə tilavət edildiyini nəql ediblər. Onlar əsasən ən azı iki əshabdan rəvayət ediblər və iki nəfər də həmin bu rəvayətçilərdən öyrəndikləri qiraəti artıq yazı şəklinə salıblar. Bunların sayi əsasən yeddi nəfərdir. Ən məşhur Quran tilavəti rəvayətçilərindən  biri Asib bin Əbi Nəcvəddir ki, iki nəfər  - öz oğulluğu Həfz bin Süleyman və Əbu Bəkr bin Əyyaş ondan olan bu qiraət rəvayətini nəql ediblər. Bu gün dünyada oxunulan əksər Qurani Kərim tilavətləri Həfzin Asimdən rəvayətinə əsasəndir. Hazırda Qurani Kərimlər də bu rəvayətin oxunuşuna əsasən işarələnir və çap edilir. Asim də bu qiraət rəvayətini İmam Əlinin əshabı olan Əbdür-rəhman Sülləmidən nəql edir. Bu gün"Həfzin Asimdən olan qiraəti" kimi məşhur qiraət zamanında İmam Əlinin oxuduğu Quran qiraətidir. Ona görə də Quran elmləri bölməsində bu Quran tilavətininin Həfzin Asimdən, Asimin Əbdür-rəhmandan,  Əbdür-rəhmanın İmam Əlidən, İmam Əlinin də İslam Peyğəmbərindən öyrənməsi qeyd olunur.

**Quran yazısının tam işarələnməsi**

isə əlavə bir mövzudur. Quranın yazı xəttinin nöqtələnməsi, işarələnməsi və hərəkələrinin qoyulması mərhələsi var ki, bu da hədisə bağlıdır. Məlumdur ki, qədim ərəb dilində hərflərin nöqtələri və hərəkələri yazılmazdı, ərəblər hərflərin sırf xətlərinə baxıb, onun necə oxunacağını, hansı söz olduğunu bilirdilər. Lakin zaman keçdikcə, İslam Xilafəti genişlənməklə digər dillərdən kənar sözlərin ərəb dilinə gəlməsi gələcəkdə ciddi problem yarada bilərdi. İmam Əlinin əshabı, Peyğəmbərin tabeinlərindən olan böyük alim, ədib, şair və ərəb dili qrammatikasının iki bölümündən birinin "sintaksis" ("nəhv") bölümünün banisi Əbul-əsvəd Duəli Quranı həriflərin nöqtələrini, hərəkələrini yəni hərf səsli işarələrini qoyur. Əlbəttə Əbul-əsvəd Duaəli İmam Əli şagirdlərindəndir və həmin nəhv elmini o Həzrətdən öyrəndiyi qeyd olunur. İmamın Əbul-əsvədə öyrətdikləri "Təliqətün-nəhviyyə" kitabı adı ilə məşhurdur. Həmin kitabın tam nüsxəsi qalmasa da ayrı - ayrı hissələri hədis kimi kitablarda keçir. Əbul-əsvəd Duaəli Quranın oxunub amma yazılmayan işarələrini, hərflərin nöqtələrini yazdı və müqəddəs kitabı artıq nöqtəli hərflər və hərəkələr yazılmış hala gətirdi. Bu tarixi faktın da hədislə bağlılığı var, yəni Əbul-əsvəd Duəli də Quranın hərəkələrini Peyğəmbər necə öyrətmişdisə onu İmam Əlidən örənib yazılı qeyd etdi. Həmin o "Peyğəmbərdən öyrənmə" hədisdir, yaxud hədis yolu ilə olur. Peyğəmbərdən İmam Əli öyrənib, Əbul-Əsvəd Duəli də İmam Əlidən.

**Hədisin tarixi**

əslində elə yuxarıda söylədiklərimizlə başlayır. Bu qeydlər bütün müsəlmanların qəbul etdiyi və mənbə kitablarında yer alan dəqiq məsələlərdir, bu barədə hər kəs hətta internet üzərindən də araşdırma apara və bunlara şahid ola bilər. Biz əlavə söz demirik, hamının qəbul etdiyi tarixi faktları qeyd edib, təhlil edirik. Ümumiyyətlə Peyğəmbər və imamların özünün kitablarının olması ya olmaması, olması təqdirdə "hansılardır" və ya olmaması halda "niyə yoxdur" məsələsinə də çalığacağıq aydınlıq gətirək. Qısa olaraq deyək ki, qeyd etdiyimiz kimi Peyğəmbər yazıb-oxumurdu, o, Quranı katiblərə yazdırırdı. Əlavə etdik ki, hətta hədisləri də yazdırırdı. Həm Quranı və həm də hədisi yazanlardan - katiblərdən biri, hətta birincisi Əli bin Əbu Talib idi. Bu bir danılmaz faktdır ki, İslam dininin hansı sahəsinə baxsaz orda Peyğəmbərin yanında Əlini görəcəksiz - vəhyin katibi, hədisi yazan, Quran tilavətinin ilk ravilərinin müəllimi, Quranın hərəkələyən şəxsin ustadı, İslamı ilk qəbul edən şəxs, İslam savaşlarının - Bədrin, Ühüdün, Əhzabın, Xeybərin və digərlərinin qəhrəmanı, Peyğəmbəri qüsl - kəfən edən, tək qızının həyat yoldaşı olan, "Təthir" ayəsinin və digər onlarla ayənin ünvanı, elə həmin

qədər də fəziləti haqqında hədislərin misdaqı, Peyğəmbərin ölüm yatağında onun yerinə yatan, ən çox hədis söyləyən, ən çox kitab yazan müəllif və sair. Burada, Peyğəmbərin "Mən elmin şəhəriyəm, Əli isə o şəhərin qapısıdır", yaxud İmam Sadiqin "Qələm" surəsinin ilk iki ayəsi haqqında buyurduğu: "Nun" hərfi Peyğəmbərə, "qələm" kəlməsi isə Əliyə işarədir" kimi məşhur hədisləri necə də yerinə düşür. Odur ki, Qədir-Xumda əslində yeni nəsə baş verməmişdi, Əlinin Peyğəmbərdən sonrakı canişinliyi rəsmən elan olundu və illa o məqama Əlidən layiqli, fəzilətli başqa kim var idi ki, ... İmam Əli tarixdə iki dəfə özünü bu mövzuda geniş müdafiə edib, birisi Xəlifə Ömərin yaratdığı Şura hadisəsində, digəri xəlifə seçiləndən sonra Kufə məscində Ruhbə hadisəsində, kimin-kim olduğunu ortaya qoyub. Hər ikisinə "Münaşidə" hədisi deyirlər. "Münaşidə" and verərək sualının cavabını tələb etməyə deilir. Əslində tarixən hədisləri inkar edənlərin niyyəti Əhli-beytin məqamını gizlətmək olub. Ancaq anlamayıblar ki, hədisləri gizlətməklə İslamı yarımçıq edib, firqələrə bölüblər.

**Az müzakirə oluan mövzular**

sırasına Peyğəmbər və imaların öz zamanında əshabları və tabeinləri tərəfindən yazılan kitablar mövsuzu da aiddir. Ümumiyyətlə Besət dövründə, İslam Peyğəmbərindən öncə də ərəb dilində yazılar var idi və həmin ədəbiyyat indi də qədim ərəb dili nümunəsi kimi ərəbşünaslıqda öyrənilir. Amma həmin dövrdə hələ yazı və kitab tam formalaşmamış bir zamanda Ərəb cəzirəsində əsasən əzbərləmək daha önəmli idi. Sözsüz ki, bununla belə dəri üzərində yazmaq və bu yazılı kitabələri saxlamaq da vardı. Bu kitabları və müəlliflərini sadalayandan sonra dini ədəbiyyatda qeyd olunan "əsl dördyüz hədis başlığı"na da aydınlıq gələcək.

**İslam Peyğəmbəri ilə başlayan Quran ayələri və hədislər**

haqqında yuxarıda qısa söz açdıq, əslində hədis tarixi Quran tarixi kimi Peyğəməbrlə başlayır. İslamda ilk yazılan hədis kitabları məsumlardan İmam Əliyə əshabdan Əbu Rafeyə məxsusdur. Hər iki kitabın mətni Peyğəmbərin söylədikləridir. Sadəcə Peyğəmbər öz söylədiklərini İmam Əliyə yazmağı tapşırır və bu fiqhi hədislər olur. Əshabdan isə Əbu Rafe yazıb oxumağı bacardığı üçün özü hədisləri, o da fiqhi hədisləri öz istəyi ilə yazmağa başlayır. Görünür fiqhi hədislərin ilk hədislər kimi yazılması təsadüfi deyil. Quranda altı mindən çox ayədən cəmi beş yüz ayə fiqhə aiddi. Anlaşılan odur ki, fiqhi hökümlər ayələrdə ümumi olaraq gəlir, xırdalıqlarını, izahını isə Peyğəmbər öz hədisləri ilə açıqlayırdı. Ümumiyyətlə əxbardan məlum olur ki, Peyğəmbər özü də hədisin

yazılmasını tövsiyyə edirdi, çünki, hədislə fiqhi hökmlər müəyyən olunur. Məsum sağ olduğu və insanlar arasında var olduqca fiqhdə ictihad qapısı bağlı olur, yəni müsəlmanlar istənilən mövzunu hədsidən öyrənə, yeni mövzu ortaya çıxdıqda isə bunu bir başa məsumdan soruşa bilərdi. İctihad fiqhə aiddir və məsum olmayan dövrlər üçündür. İnşallah İmam Mehdinin zühuru ilə yenə ictihad qapısı bağlanacaq, çünki məsum İmam  artıq insanların arasında olacaq. Xülasə budur ki, o zamanlar hədislər belə demək olar ki, əsasən fiqh hökümləri istiqamətliydi və Peyğəməmbər hədislərin öyrənilməsinə, yazılmasına tövsiyyədə bulunurdu.

## İlk hədis

İslam Peyğəmbərinin "La ilahə illəllah, Muhəmmədun Rəsulullah, de!" kəlamıdır. Onun bu sözləri İslamda ilk hədis sayılır, o peyğəmbərlik məqamına seçiləndən və ona nazil olan ilk ayələrdən sonra, bu sözləri Xədicəyə və Əliyə deyib. Bu hədis etiqad və əqidə haqqındadır, təbiidir ki, ilk hədis məhz elə bu mövzuda olmalıydı. Tarixi xəbərlərdən məlum olur ki, Bu İslam Peyğəmbərinin ilk çağırışı olub və ilk müsəlman olan şəxslər öz xanımı Xədicə Kubraya və əmisi oğlu Əli bin Əbu Talibə bu kəlamı söyləyib. Bin Şəhraşub "Əl-Mənaqib" kitabında bu hədis barədə geniş söz açıb.

## Hədis yazan ilk əshab

Əbu Rafe Qibtidir. O, da İmam Əli kimi hədis yazan idi, hətta yazdıqlarından kitab ərsəyə gətirən ilk əshabdır. Ona Peyğəmbərin "azad kölə əshabı" da deyirdilər. Bildiyiniz kimi İslam dini zühur edəndə dünyada hələ quldarlıq tüğyan edirdi və Peyğəmbər Hicazda ilk şəxs oldu ki, mərhələli şəkildə quldarığın son verməsinə başladı, bu İslam dininin çağırışı idi. Hz. Muhəmməd ilk olaraq mərhələli olaraq öz kölələrini azad edir, müsəlmanlara da bunu tövsiyyə edirdi və hətta ibadətin kəffarəsi kimi bir kölə azad etməyi tapşırırdı. Əbu Rafe Peyğəmbərin əmisi Abbasın və onun həyat yoldaşı Ümmü Fəzlin köləsi idi, onlarla birgə İslamı qəbul etmişdi. Bədr savaşından sonra Mədinəyə köçməklə azad olunmuş və hürr insanlara qovuşmuş Peyğəmbər əshabı idi. Peyğəmbərin kəlamlarını öyrənmək məqsədilə qeyd edirdi. Yazıb-oğumağı bacardığından o Həzrətin əsasən fiqhi mövzuda dediklərini fürsət düşdükcə yazırdı və onun bu yazdıqları sonradan dəri üzərində yazılan qədim kitablardan biri kimi tarixə düşdü. Rical elminin banisi, hicri 4-cü əsrlərdə yaşamış Əhməd bin Əli Nəcaşı kitabın adını "Kitabus-sünəni vəl-əhkam vəl-qəzaya" kimi tanırdırır, namaz, oruc, həcc, zəkat və qəzavətlərə aid

ümumi hədis kitabı olduğunu bildirir. Bu əshabın yazdığı ilk hədis kitabıdır. (“Ricalun-Nəcaşi”, səh. 4)

## Hədsiləri yazan ən məşhur əshab

Hz. Muhəmmədi, İmam Əlini, Fatimeyi Zəhranı, İmam Həsəni, İmam Hüseyni, İmam Zeynəlabidini, İmam Muhəmməd Baqiri görən və onların hamısının əshabı sayılan uzun ömürlü Peyğəmbər səhabəsi Cabir bin Əbdullah Ənsaridir. Cabir Mədinədə dünyadan köçən son Peyğəmbər əshabı oldu. O, hədisləri qeyd edərdi, onun üzündən sonra  “Cabirin səhifəsi” adlı kitabı var idi. Təkcə “Kutubu Sittə”də ondan təqribən 1540 hədis nəql olunur. Cabir bin Əbdullah haqqında İslam mənbələrinin hamısında geniş yazılıb.

## Peyğəmbərin dostu da hədis yazırdı

və bu Hz. Muhəmmədin yaxını Əbu Əbdillah Salman Muhəmmədidir. Dilimizdə olan ədəbiyyatda o, daha çox “Salman Farsi” kimi tanınır. O özü yazıb-oxuma hətta tərcümə bacarığı ilə məşhur idi. Tarixdə ondan əsasən iki kitabı məşhurdur, birincisi Quranın tam olamayn fars dilinə ilk tərcüməsi və digəri “Salmanın kitabı” kimi tarixdə qalan hədis kitabıdır. Hicri 4-cü əsrlərdə yaşamış İslam alimi Əhməd bin Əli Nəcaşı və hicri 5- cı əsrlərdə yaşamış Bin Şəhr Aşub  İmam Əlinin zamanında tamamlanan ikinci kitabı tanıtdırılar.

## Hədis yazan daha bir tanınmış  şəxs

Rəsuli Əkrəmin vaxdında yaşayan və əsərləri bu günə qədər gəlib çatan Peyğəmbərin əmisi oğlu, təfsirçi, hədisçi və tarixçi Əbdullah bin Abbasdır. Əlbəttə qeyd edək ki, o Peyğəmbəri uşaq vaxdında görüb və onun səkkiz yaşı olanda Peyğəmbər dünyadan köçüb, amma İslam maarifində o da əshabdan sayılır. Onun daim dəri lövhələrlə gəzərək qeydlər apardığı, uşaqlığda Peyğəmbərdən, daha sonra İmam Əlidən yazdığı hədislər, Quranın izahı ilə bağlı məsumıların söyləntiləri və əxbarı, özünün şahidi olduğu tarixi hadisələr barədə xatırlamaları kifayət qədərdir. Rəvayətə görə o dünyadan köçəndə bir dəfə yükü qədər əlyazmaları var idi. Bu gün təkcə əhli sünnə mənbələrində ondan təqribən 1660 hədis nəql olunur. (Xətib Bağdadi, “Təqyidul-elm”, səh 91; Bin Səəd “Təbəqatul-Kubra”, c. 5, k-26)

**Digər mühəddislər**

haqqında söz açmırıq və bura qədər məsumlardan olmayan və kitabı olan bir sıra hədisçi əshabdan ad apardıq. Peyğəmbərin əshabından məşhur hədisçilər - Əbuzər Qifari, Miqdad bin Əsvəd, Ənəs bin Malik, Əmmar Yasir, Əbdullah bin Məsud, Səəd bin Ubadə, Əbu Səid Xıdri və digərləri də var idi ki, onlar yalnız əzbərdən şifahi hədis nəql edirdilər, hədis yazmırdılar, yəni bizdə onların kitabları barədə məlumat yoxdur. Ümumiyyətlə isə Rical kitablarında mühəddislər və onlardan kitab sahibi olanlar haqqında müfəssəl yazılıb.

**Əbu Rafenin böyük oğlu**

Əbeydullah əshabdan olub-olmaması bəlli deyil, məlum olan odur ki, Əbu Rafe Qibtinin ilk oğlu idi və atası kimi o da hədisləri yazırdı. O sonradan İmam Əlinin katiblərindən oldu və onun yanında qeydlər aparardı. İki kitabı var "İmam Əlinin qəzavətləri" və "İmam Əlinin döyüşlərində iştirak edən əshabı". İkinci kitab rical elminin ilk mənbəyi sayılır. (Məhəmməd bin Həsən Tusi, "Əl-Fehrest", səh. 202)

**Əbu Rafenin kiçik oğlu və fiqhi kitabın sahibi**

Əli bin Əbu Rafe Peyğəmbərin əshabı Əbu Rafe Qibtinin ikinci oğluydu, atası və böyük qardaşı kimi hədis yazırdı. O da İmam Əlinin yaxın əshabı və xəzinədarı idi, qardaşı kimi Peyğəmbərin tabeinindəndi, Hz. Muhəmmədin əshablarını görmüşdü. Kitabının adı "Kitabun fil-fiqh" adlanır. O fiqhi İmam Əlidən öyrənimişdi və o Həzrətin şagirdlərindəndi. Baxmayaraq ki, ata Əbu Rafenin özünün də Peyğəmbərdən yazdığı hədislər fiqhə aid idi, amma İslamda ilk fiqh kitabı kimi məhz Əli bin Əbu Rafenin "Kitabun fil-fiqh" əsəri sayılır. (Əhməd bin Əli Nəcaşı, "Ər-Rical" səh. 5)

**Növbəti hədis kitabının sahibi**

İmam Əlinin yaxın əshabı Əsbəğ bin Nubatihdir. O İmam Əlinin xüsusi dostlarından olmuş, o Həzrətin xilafəti zamanında yaratdığı "Şurtətul-xəmis" daxili qoşun, mühafizə ordusu - müasir dildə desək polisin komandirlərindən olmuşdur. (İslamda ilk dəfə daxili qoşunu, mühafizə güclərini - polisi İmam Əli öz xilafəti zamanı yaradıb.) O hərbçi olması ilə yanaşı həm də hədis yazarı idi, "İmam Əlinin Malik Əştərə məktubu", "İmam Əlinin oğlu Muhəmməd Hənəfiyyəyə vəsiyyəti"

məhz onun "Əmirəl-möminin hökümlərinin möcüzələri" ("Əcaibu əhkami Əmirul-muminin") kitabında gəlib. (Əhməd bin Əli Nəcaşı, "Ər-Rical" səh. 8)

**Məsumların zamanında hədis yazan və kitab sahibi olan**

daha bir şəxs Süleym bin Qeys Hilalidir. O Peyğəmbəri və Fatimeyi Zəhranı görməsə də İmam Əli, İmam Həsən, İmam Hüseyn, İmam Səccad, İmam Baqirin əshabı sayılır. Peyğəmbər əshabları, Əbuzər Qifari, Salman Muhəmmədi və Miqdad bin Əsvəddən hədislər nəql edib. Kitabı öz adıyla adlanır "Kitabu Süleym bin Qeys Hilali". Əməvi ordusunun başçısı Həccac bin Yusif onun ölüm fərmanını verəndən sonra öz yazdıqları ilə birgə Əban bin Əbi Əyyaşın evinə sığınır və 85 yaşında dünyasını dəyişir. Onun hədisləri və kitabı Əban bin Əyyaş tərəfindən yayılıb, İmam Sadiq onun rəvayətlərinin əksəriyyətini təsdiq edir. (Numani "Əl-Qeybət", səh. 103)

**Daha bir hədsi kitabının müəllifi**

Əbu Süleyman Zeyd bin Vəhəbdir, o, da Peyğəmbəri görməyib, əshabı görən tabeindəndir, Əbdullah bin Məsuddan, Əbuzər Qifaridən hədislər nəql edir, İmam Əlinin əshablarından sayılır. Bu həmin şəxsdir ki, Peyğəmbəri ziyarət etmək üçün yola çıxır, amma o gəlib çatana qədər Hz. Muhəmməd dünyasını dəyişir. Tarixdə ilk şəxsdir ki İmam Əlinin xütbələrində iştirak edib və onları qələbə alıb, kitabının adı "Əmirəl-mömininin xütbələri" adlanır. (Məhəmməd bin Həsən Tusi, "Əl-Fehrest", səh. 72)

**Belə şəxslərn hamısını qeyd etməsək də,**

Haris bin Əbdullah Həmdani ilə bu siyahını tamamlayırıq. Həmdani də Peyğəmbəri görməsə də onu görənləri görmüşdü və imam Əlinin əshabından idi. "Kitabu Haris" adlı hədis və İmam Əlinin xütbələrindən ibarət kitabı var. (Şeyx Səduq, "Ət-Tohid" kitabı, c. 1, səh. 31)

**Hicrətdən 13 il əvvəldən  hicri-qəməri 40-cı ilədək**

olan 53 illik müddət bizim üçün çox önəmlidir. Çünki bura qədər qeyd etdiklərimiz, bütün bu hədis yazmalar və kitab sahibləri İmam Əlinin xilafətinin

sonuna qədər ərsəyə gəlib. Yəni Hicrətdən 13 il əvvəldən hicri-qəməri 40-cı ilədək olan 53 illik müddətdə yazılıb. Çünki Müaviyənin İmam Əlinin şəhadəti və İmam Həsənlə sülhündən sonra xilafəti ələ keçirməsilə nəinki hədis yazmaq, hətta hədis söyləmək, Quranın ayəsini hədislə izah etmək belə bütün xilafətdə qadağan olundu və bu qadağa dövrü ortada bir neçə ili istisna etməsək təqribən 85 il davam etdi. Hicri qəməri 40 cı il Müaviyə ilə əməvilər xilafəti başlayandan Hişam bin Əbdülməlikin xəlifəliyinə qədər hətta o ölənə qədər belə davam etdi. Əlbəttə arada bir neçə il İmam Baqirin zamanında bu sahədə nəfəs alma imkanı oldu. Hişamın ölümündən öncə Əməvilər xilafətində silkələnmə başladı, sonradan iki ildə dörd Əməvi xəlifəsi iqtidarda oldu, nəhayət 127 ci ildə Əməvilər tam çökdü, Əbbasilər hakimiyyətə gəldi. Əbbasi xəlifəsi Əl-Mənsur hakimiyyətdə möhkəmlənənə qədət təqribən 15-20 il müddətində boşluq yarandı, İmam Muhəmməd Baqirin hələ əvvəldə başladığı elm hərəkatı, bu müddətdə geniş səviyyədə İmam Cəfər Sadiq tərəfindən yenidən dirildi və hədis məktəbi ayağa qalxdı.

**İmam Səccadın "Səccadiyyə" kitabı**

orujinalda 38 başlıqdan ibarət olan o Həzrətə məxsus dualarından ibarətdir. "Səccadiyyə" kitabı da hədis qadağasının qurbanı oldu. İmamın özündən sonra İmam Baqir tərəfindən ərsəyə gəlib. Hərçənd ki, İmam Muhəmməd Baqir və Zeyd bin Əli - iki qardaş bu dualar toplusunu İmam Səccadın zamanında hazır etmişdilər. İmam Səccadın digər kitabları "Hüquq risaləsi" və "İmam Səccadın hədis kitabı" da hakəza. Xoşbəxtlikdən "Hüquq risaləsi" hicri dördüncü əsrdə yaşamış Əl-Hərraninin "Tühəfül-uqul" kitabında yer aldı, amma digər hədis kitabı tamamilə yoxdur, yalnız bəzi hədisləri hazırki mənbə kitablarında qeyd olunub.

**Məsum imamların ərsəyə gətirdiyi digər kitablar**

gölgədə qalmamalıdır, çünki söz hədisdən və mühəddisdən gesirsə onlardan da söz açmalıyıq. Amma həmin kitablar da Müaviyə xilafətə gələnə qədər ərsəyə gəlib. Məsələn "İmam Həsənin səhifəsi", "İmam Hüseynin səhifəsi" adlı kitabların adı tarixdə olsa da özlərindən xəbər yoxdur. İmam Səccadın yazdığı kitabların aqibətindənsə yuxarıda məlumat verdik. Tarixdə o zamana qədər "Kitabu Fatimə" adlı bir hədis kitabından da söhbət gedir. Amma Fatimeyi Zəhraya aid olan bu hədislər kitabı əllərdə olmayıb, harda olması barədə müxtəlif versiyalar var. Odur ki, yeni abzasda ancaq İmam Əlinin kitablarından söz açacağıq.

**İmam Əlinin kitabları**

əslində hədis sahəsində önəmli yer tutur. İmam Əlinin həm özünün yazdığı, həm ondan öyrəndiklərini əshabının yazdığı və həm də sonralar onun kəlamlarından toplanan kitablar İslam maarifində Quran və Peyğəmbər kəlamından sonra əsas sayılır. Peyğəmbərin zamanından özü dünyadan köçənə qədər İmam Əli bir neçə kitab yazıb ki, onları bir çoxunu burda qeyd edəcəyik. İmam Əli hətta cahiliyyət dövründən, uşaq vaxtından yazıb ouxumağı bacarırdı və qeyd etdik ki, o, Quranın katiblərindən biri, hədisi yazan ilk məsum idi. Yuxarıda qeyd etdiyimiz Əbu Rafe əsahabdan ilk hədis yazan şəxs idi və zaman baxımından Hz. Əlidən sonra hədis yazmağa başlamışdı. Beləliklə, İmam Əlinin kitablarını sıralayaq.

**"Kitabu Əli"**

bu kitabların birincisidir, yuxarıda qısaca haqqında danışdığımız fiqhi hədislərdən ibarətdir. Əlbəttə tarixə görə bu kitabı İslam Peyğəmbəri Hz. Əliyə yazdırıb, belə ki, fiqhi hökmlərin izahına aid Hz. Muhəmmədin söylədiklərini İmam Əli qeyd edib, odur ki, bəzi mənbələrdə bu kitab Peyğəmbərə də nisbət verilib. Bu kitabın hədisləri pərakəndə şəkildə mənbə hədis kitablarında var. Mənbələrdə bu kitabı "Səhifətu Əli" yaxud "Mushəfu Əli" kimi də qeyd ediblər." Cəlalud-din Syutinin "Əl-itqan fi ulumil Quran" kitabında (c. 1, səh. 59 və 74); Hakim Həskaninin "Şəvahidut-tənzil liqəvaidit-təfzil" kitabında (c. 1, səh. 36); Bin Səəd Bağdadinin "Ət-təbəqatul Kubra" (c. 2, səh, 238) və digər mənbələrdə bu barədə yazılıb. Bu kitabın əhli sünnə mənbələrində adı keçir. Amma çox təəssüf ki, əhli sünnənin mənbə hədis kitablarında İmam Əlidən cəmi 537 hədis var.

**"Camiə"**

zahirən İmam Əliyə məxsus ikinci kitabdır. "Camiə" kitabı da fiqhi hökmlər haqqında Peyğəmbərin söylədiklərindən ibarət olub. Bu kitabın adı əxbarda keçir. Bu kitabın hədislərindən də əhli sünnə alimləri daha çox söz açıblar. İmam Qəzali ("Sirrul-aləmin" c.1, səh. 467) və Şərif Corcani ("Şərhul-Muvaqif" c.6, səh.22) bu kitab haqqında qeydlər ediblər. Əlbəttə bu kitabın elə yuxarıda ki, kitabla eyni olduğunu iddia edənlər də var.

**“Müshəfu Fatimə”**

İmam Əlinin tarixdə adı keçən amma özü əldə olmayan kitablarından biridir. Bu kitabda Peyğəmbərin qızı Fatimeyi Zəhraya söylədiyi hədisləri İmam Əli qələmə alıb. İmam Əli söhbətdə iştirak edib və imla şəklində hədisləri yazıb. Bu kitab Peyğəmbərin Fatiməyə nəsihətləri, movizələri və ibrət amiz kəlamlarından ibarətdir. İmam Cəfər Sadiq bu kitabı eyniylə belə tanıtdırıb: “Bu Peyğəmbərin öz qızı Fatiməyə sölədiyi və İmam Əlinin qələmə aldığı kitabdır.” 3-cü hicri ilində yaşayan, İmam Həsən Əsgərinin şagirdlərindən olan Səffar Qumi bu hədisi öz kitabında qeyd edib. (“Bəsairud-dərəcat” səh. 176, 181.) Əlbəttə bu kitabın Fatimeyi Zəhranın öz hədislərindən ibarət olduğuda da iddia edilib, yuxarıda qeyd etdiyimiz kimi həmin kitab da eyni adda olub. Amma o kitabdan bir məlumat yoxdur. Ya eyni adda iki kitab olub, ya da yanlışlıqla elə bu kitaba Fatimeyi Zəhranın hədislərindən ibarət olan kitab deyilib.

**“Kitabu Cəfr”**

digər bir kitabdır, bu İmam Əlinin qeyb elmindən xəbər verən tarixdə çox məşhur əsəridir. Bu əsərində tarixdə adı keçir amma nüsxəsindən xəbər yoxdur. Əlbəttə bəzi alimlər bu kitabın çox kiçik həcmli bir və ya iki dəri səhifədən ibarət olduğunu bildiriblər. “Cəfr” keçiyə ya quzuya deyilir, bu kitab keçi ya quzu dərsisi üzərində yazıldığı üçün belə adlanıb. (“Bəsairud-dərəcat”, səh. 159; Əyyaşinin təfsiri, c. 2, səh 28.)

**“Təliqətun-nəhviyyə”**

ərəb elminin sintaksis (nəhv) bölümünə aid olan və şagirdi Əbul-əsvəd Duaəliyə öyrətdiklərindən ibarət kitabıdır. Bunun nüsxəsi hal - hazırda olmasa da Quranı hərəkə və işarələyən Əbul-əsvəd Duaəli məhz bu kitaba istinadlar edib. Hazırki ərəb dili qrammatikası kitablarında bu kitabın qaydaları yer alır. (“Məktubat əhadisul-əimme”, c. 1, səh 46; c.2 səh. 9)

**“Kitabud-diyat”**

Həzrətin digər bir kitabı adlanır, bu kitabda fiqhdə diyələrin miqdarlndan danışılıb. Bu kitab tam olaraq qalıb, 17 dəri səhifədən ibarətdir. Mərhum Koleyni, Şeyx Səduq, Şeyxut-taifə Tusi bu kitabdan hədislər gətiriblər. Zamanında bu kitabı İmam Sadiq və İmam Rzaya təqdim ediblər və onlar bu kitabın hədislərini təsdiq

edib. Zahirən bu kitabı Bin Əbcər Kənani qələmə alıb, İmam Əlinin ordu başçılarına söylədiklərindən ibarətdir. Fiqhdə insana yetirilən xəsarətin mali təzminatının şəri miqdarları qeyd olunub. (“Kitabu Əbdullah Bin Cərir”, səh. 139)

**“Kitabun fil-ulumil-Quran”**

İmamın digər bir kitabıdır və Quran elmlərinə aiddir. 13 dəri səhifədən ibarət olan bu kitabı Əllamə Məclisi tam olaraq “Biharul-Ənvard” kitabında qeyd edib. İslam maarifinə aid olan Quran elmləri fənni mövzularını əhatə edib. (“Əyanuş-şiə”, c. 1. səh. 85)

**“Müshəfu Əli”**

tarixdə adı keçən bu adda iki kitab var, bu İmam Əliyə aid edilən, yəni onun katiblik etdyi Quran səhifələrindən ibarətdir. Bu kitablarda o, Hzərət yazdığı ayələrə qısa izahlar da verib, bu əsasən nasix və mənsux ayələrə aid olan şərhlərdir. Brinci kitab Kufi xəttilə yazılan və YaSin surəsindən Fussilət surəsinə qədər olan hissədir. Eyni adda digər bir kitab Hud surəsindən Kəhf surəsinə qədərdir. Bu iki kitab hal-hazırda əlyazma şəklində qalır və Məşhəddə İmam Rzanın hərəminin muzeyindədir. (“Əyanuş-şiə”, c. 1. səh. 84, 86)

**İmam Əlinin tarixdə qeyd olan sonuncu - onuncu kitabı**

Xəlifə Osman bin Əfvanın zamanında bütün Quran nüsxələri toplanarkən İmam Əlinin bir neçə dəvə yükü qədər gətirdiyi dəri nüsxələrə yazdığı Quran və onun izahıdır. Bu kitab Quranın ilk tam təfsiri də adlanır. İmam Əli Quran haqqında bütün ayələri və bildiyi məlumatları orada toplayır. Bu kitab çox geniş və izahlarla birgə olduğundən Xəlifə Osman tərəfindən qəbul olunmur və İmam dəvələri nüsxələrlə birgə geri aparır. Bu hadisə və kitab haqqında tarixdə qeydlər var amma kitabın sonrakı tarixi məlum deyil, müxtəlif versiyalar əlbəttə ki, qeyd olunub. (“Məktubat əhadisul-əimme”, c. 1, səh 52) “Kumeyl duası”, “Malik Əştərə məktub”, “Məhəmməd Hənəfiyyəyə tövsiyələri”, “İmam Həsənə nəsihəti”də tarixdə ayrıca kitab kimi gəlib. Lakin yuxarıda qeyd etdiyimiz kitablarda qeyd edildiyi üçün biz ayrıca gətirmədik.

**Quran ayələri, Muhəmməd Peğəmbər və İmam Əli**

kəlamları ardıcıllıqla İslam maarifinin ilk və əsas hissəsini təşkil edir, əlbəttə əvvəldə də qeyd etdik ki, hədis Quranın mənasına uyğun, onun izahı olaraq söylənilənlərdir və elə Quranla bərabər tarixə malikdir. İmam Əli tarixdə ilk şəxsdir ki, on kitaba sahib olub və bu böyük bir İslam elmidir. Sonradan hicri 4-cü əsrdə yaşamış Seyyid Rəzi "Nəhcül-bəlağə" adında bir kitabda İmam Əlinin xütbələrindən, məktublarından və qısa kəlamlarından ibarət bir kitab ərsəyə gətirdi. Daha sonra 6-cı hicri ilində yaşamış Əbdül-vahid Təmimi "Qürərül-hikəm fi dürərül-kəlim" kitabında mindən çox İmam Əlinin qısa hədislərini topladı. Müasir alimlərdən seyydi Sadqi Musəvi Şirazi "Təmamu Nəhcil Bəlağə" adlı kitabda İmam Əlinin bütün məktublarını, xütbələrini, hədislərini və dualarını tam və geniş şəkildə ərsəyə gətirib. Hətta Xızır peyğəmbərə aid olan və əsahbı Kumeyl bin Ziyada öyrətdiyi duanı da həmin kitabda qeyd edib. Bundan əlavə bütün mənbə hədis kitablarında Peyğəmbər və İmam Əlidən çoxlu hədislər var.

**Bura qədər**

demək olar ki, hicri 40-ci ilinədək olan bütün yazılı və kitab halına düşmüş hədislər haqqında danışdıq. Bir daha qeyd edək ki, bütün bu kitablar, indiyə qədər qeyd etdiklərimiz hicri 40-cı ən uzağı 41-ci elədək, Müaviyə xilafətin başına keçənə qədər yazılan kitablar olub. Bundan sonra Əməvilər İslam üzərinə qaranlıq çökdürməklə artıq heç bir kitab işıq üzü görməyib və demək olar ki, Hişam bin Əmdülməlik 125 ci hicri ilində dünyadan gedənədək bu qaranlıq dövr davam edib. Həmin dövrdə yəni 85 il ərzində hədis yazmaq hara, heç hədis söyləmək icazəli olmayıb, yalnız izah verilmədən Quran oxunmasına icazə verilib. Bu 85 ildə minbərlərdən İmam Əli və övladlarına lənətlə xütbələrə başlanılma əmri verilib. Bu dönəmdə İmam Həsənin şəhid edilib, İmam Hüseynin Kərbəla müsibəti baş verib, həmin dönəmdə ən uzun müddətli imaməti İmam Səccad yaşayıb. O zaman haqqında isə təkcə bunu deyək ki, nsanlar heç adi suallarını soruşmaq üçün, bir alim kimi də İmam Səccada yaxınlaşa bilməyiblər. Əlbəttə İmam Həsən və İmam Hüseyndən bir sıra hədis və əxbar var, amma bu qadağanın olmamasına görə deyil, o iki Həzrətin şəxsi nüfuzları, Peyğəmbərin nəvələri, haqlarında ayə və hədis olduğuna görə olub. Bəzi digər kitabların itməsi və nüsxəsinin məhv edilməsi də həmin 85 illik qaranlıq dönəmdə baş verib. Əlbəttə burda Ömər bin Əbdül-əzizin xilafəti zamanında qadağaların götürülməsi və İmam Baqirin həmin dönəmlərdəki elmi hərəkata başlaması da var. Amma bu çox çəkmədi, təqribən 99-cu hicri ilindən 105-ci hicriyə qədər - Hişam bin Əbdülməlik hakimiyyətə gələnədək

yüksək səviyyədə davam etdi, 114-cü ildə Hişamın İmam Baqiri qətl etməsiylə vəziyyət yenidən əvvəlki halını aldı.

**“Baqiriyyə” və “Sadiqiyyə”**

hədis dönəmlərinin adıdır. “Baiqriyyə” Ömər bin Əbdüləzizin xilafətindən Hişam bin Əbdülməlikin xilafətinə qədər, hətta İmam Baqirin şəhadətinədək olan təqribən 15-20 illik zamana, “Sadiqiyyə” isə Hişam bin Əbdülməlik öləndən Əl-Mənsurun xilafəti dövrünə, hətta İmam Sadiqin onun tərəfindən şəhid edildiyi müddətə qədər olan zamana deyilir. Yuxarıda qeyd etdiyimiz kimi Əməvilərin son 3 il xilafətdə 4 xəlifə dəyişməsi, abbasilərin qiyamları, onlarla mübarizəsi, nəhayətdə hakimiyyətə gəlmələri, onların xəlifəlikdə möhkəmlənməsi təqribən15-20 il çəkdi və bu dönəmdə İmam Sadiqlə hədisə yeni nəfəs verdi, elmi hərəkat yaratdı. Aralarında təqribən 15 il fasilə olsa da “Baqiriyyə” və “Sadiqiyyə” dönəmi, elm ilə qiyam etmə dövrü olub. İmam Baqirin yetişdirmələri İmam Sadiqin tələbələri oldu. Məhz həmin dövrlərdə hər iki imam tərəfindən tələbələr yetişdirilib özləri və tələbələri tərəfindən onlarla kitablar yazılıb.

**İslamda ilk tədris mərkəzi**

İmam Cəfər Sadiq tərəfindən Mədinədə yaradılıb, dörd minə yaxın şagirdi olub, özü və şagirdləri onlarla kitablar yazıb, bir çoxu günümüzə qədədr gəlib çatıb. Əbu Bəsir Əsədi, Əban bin Təğlib (Usul (Usulil-fiqh) elminə aid ilk kitabın sahibi), Cabir bin Həyyan (kimya elminin banisi), Cəmil bin Dərrac, Cabir bin Yəzid Cəvfi, Zürarə bin Əbi Şeybani, Malik bin Ənəs, Müfəzzəl bin Ömər, Noman bin Sabit, Əbdullah bin Nəcaşi, Məhəmməd bin Muslim, Bureyd bin Muaviyə, Yunis bin Əbdür-rəhman, Hişam bin Həkəm (İslamda Kəlam elminə aid ilk kitabın müəllifi) və digər minlərlə belə ustadlar İmam Sadiq məktəbinin yetişdirmələridir. Bunlar hərəsi İmam Baqir və Sadiqdən onminlərlə hədis öyrənib, onları əzbərləyib və qeyd ediblər. Məsələn Cabiri Cəvfinin iki imamdan yetmiş minə yaxın, Muhəmməd bin Muslim əlli minə yaxın hədis öyrənirlər. İmamın tələbə və şagirdləri hər biri bir alim kimi yetişir. Bu dönəmlə artıq imamların şagirdləri çoxlu əsərlər ortaya qoydular, bu günə qədər həmin kitablar gəlib çatıb. Hətta sonralarda “Əl-Muhasin”, “Qurbul-əsnad”, “Bəsairud-dərəcatul-kubra” kimi kitablar növbəti imamların vaxtında yazılsa da İmam Baqir və İmam Sadiqin tələbələrinin qeyd etdiyi hədis cüzləri əsasında yazılıb.

## Quran qorunduğu kimi, hədis qorunmadı

buna  ancaq təəssüflənirik, bu İslamın ilk illərindən belə idi, çünki, İslamın əsas kitabı Qurandır, ona daha çox diqqət olunmalıydı və olundu. Digər tərəfdən hədis say baxımından həddən artıq çox idi, Peyğəmbər və imamların bütün səylərinə baxmayaraq kontrolda saxlamaq çox çətin idi. Yalnız sonradan mükəmməl elmlər buna çarə oldu. Əlbəttə yanlışlıqla hədis söyləyənləri, sonradan bilərəkdən saxta hədis yaradanların mövcudluğunu da,  unutmamalıyıq. Əsas odur ki, İslam Peyğəmbərinin ilk zamanlarından, birinci Quran ayəsi nazil olandan və İslam dini elan olunan başlanğıc günündən hədis də olub. Məsələ burasındadır ki, İslamın ilk zamanlarından insanlar əvvəllərdə qeyri-dəqiqlikdən, yanlışlıqdan, bilməyərəkdən, cahillikdən səhv hədislər söyləyirdilər. Əlbəttə bir qayda olaraq belə hədislər şahidlər tərəfindən dinləniləndə Peyğəməbərə, daha sonrakı illərdə imamlalara xəbər verilir və onlar da yanlış hədis deyənlərə xəbərdarlıq edirdilər. Peyğəmbər Quranı həm yazdırır və həm də əzbərlətdirirdi, amma hədis barədə eyni dəqiqlik çətin olurdu, yanlış hədis söyləyənlərə sadəcə ciddi tapşırıq verir, fürsət düşdükcə isə mühüm mövzularda İmam Əliyə hədis yazdırırdı. Xülasə hədis üzərində də çalışılıb və onların qorunmasına, təhrif olunmadan saxlanılmasına məsumlar çox diqqət edərdi. Hədisin qorunması İmam Baqir və İmam Sadiqin dönəmində deмək olar ki, həllini tapdı, lakin çox təəəssüf ki, məzhəbçiliyin genişlənməsi fonunda yanlış və saxta hədislər vüsət aldı.

## İmam Baqir və İmam Sadiqin əsərləri

yenidən hədislərin yazılmasından xəbər verir və doğru hədislərin ünvanı kimi tarixdə qalıb. Əlbəttə bu kitabların çoxu İmam Sadiqdəndir. Biz burda onların adlarını qeyd edirik, həmin kitablar günümüzə qədər mənbə kitablarımızda qeyd olunublar. Yəni həmin kitablar haqqında məlumatlar kifayət qədərdir və qeyd etdiyimiz kimi indiyə qədər bir çoxu qorunub saxlanılıb, yaxudda hədisləri müasir kitablara köçürülüb. “Ərbə miə” mövzusunda bu barədə danışacağıq.

## İmam Baqirdən olan kitablar

silsiləsindən ilk kitab “Təfsirul-Baqiri”dir. Sonradan Bin Nədim onu Əbu Caruddan nəql edib. Bin Nədim Əbu Carudu, Əbu Carud isə hətta İmam Səccadı da görüb və Muxtarın qiyamına dəstək verən əshabdan olub. Bu kitabın bəzi hissələıri indiyədək qalıb. Digər kitab “İmam Baqirin Sədul Xeyrə risaləsi” adlanır, iki məktubdan, beş dəri səhifədən ibarətdir ki, Koleyni “Rovzətul-Kafidə” bu əsəri

tam gətirib, yəni bu günə qədər qalıb. İmam Muhəmməd Baqirin digər bir kitabı, hətta əhli sünnənin mənbə hədis kitabı “Müsnədu Əhməd”də qeyd olunan Həcc əməllərinə aid olan, fiqhi mövzuda “Əl-Mənasiq” kitabıdır. Əlbəttə kitab kimi mənalı “Aşura” ziyarətnaməsi də Kərbəla şahidi İmam Baqirə məxsusdur.

**İmam Cəfər Sadiqin kitabları**

İmam Əli kimi çoxdur, ən əsası onun kitablarının demək olar ki, hamısı hazırki mənbə hədis kitablarında qeyd olunub: 1) Kəlam və fiqh mövzusunda “Risalətul-Əhvaziyyə”; 2) Fiqhə aid “Risalətun fil-qənaim”; 3) Əxlaq haqıında “Risalətun fi vucuhil-məaiş vəl-ibad”; 4) İrfanda “Risalətun ila əshabih”; 5) Kəlam elminə aid, “Tohidu Mufəzzəl”; 6) Yenə də kəlam haqqında “Əl-Əhlicətu fit-tohid”; 7) Əxlaq və irfan haqqında “Misbahuş-şəriət”; 8) Quran elmləri haqqında “Xəvasul-Quranul-Kərim”. Məşhur “Ərbəin” ziyarətnaməsi də İmam Sadiqə məxsusdur ki, kitab qədər önəmli əsərdir.

**İmamın tələbələrinin əsərləri**

də az deyildi, hətta bir çox kitablarda vardır ki, İmam Sadiqə nisbət verilsə də əslində onun tələbələri tərəfindən yazılıb, məsələn şagirdi, kimya elminin banisi Cabir bin Həyyyanın “Kimya” adlı kitabı İmam Sadiqə nisbət verilir, amma Cabirin öz kitabıdır. Ümumiyyətlə zamanında İmamın tələbələrinin ondan qələmə aldıqları üç yüzə yaxın risalənin olduğu bəzi ailmlər tərəfindən bildirilir. Çox təəssüf ki, sonrakı dövrlərə onlardan cəmi otuza yaxını qalıb. Onlar da mənbə kitablarda əksini tapıblar. Bir sıra İmam Sadiqə aid olmayan kitablar var ki, ona nisbət verilir amma o əslində onun sevməyənlər tərəfindən bilərəkdən ortaya atılıb, məsələn “Ulumul-ğəribə” kitabı cadu, sehr və fal haqqındadır, əsksəriyyət onu İmam Sadiqə aid etsə də bu böyük yalan və iftiradır.

**İmam Kazimdən olan kitablar**

da vardır. İmam Kazim zamanı daha çətin şərtlər olsa da, o Həzrət ömrünün bir hissəsini zindanlarda keçirsə də, kitabları var. İndi nüsxəsi əldə qalmayan və yalnız bir neçə hissəsi Bin Şəhr Aşubun “Mənaqibu Ali Əbi Talib” kitabında gələn “İmam Kazimin təfsir” kitabı və əshabı Musa bin İbrahimin İmamdan eşitdiyi hədisləri yazdığı “Musnədu əl-imam Musa bin Cəfər” kitablarını qeyd etmək olar.

**İmam Rzanın əsəsrləri**

əsasən xəlifə Məmunun vəli əhdliyini məcbur qalaraq, hökumət, siyasət, maliyyə, hərbi işlərə qarışmamaq şərtilə qəbul etdiyindən sonra ərsəyə gəldi. Çünki, bununla İmam Kazimin zamanındakı ağır dönəmdən sonra ona ictimaiyyət və kütlə ilə əlaqə qurmaq fürsəti yarandı. Əhlibeyt sevərlərdən Tus və ətrafından əlavə bütün digər məmləkətlərdən onun hüzuruna gəldi və İmam Baqir və İmam Sadiq zamanındakı kimi olmasa da, İslamm maarifini çatdırmaq üçün yaxşı məqam əldə etdi. Ona görə ondan da çoxlu hədislər və kitablar qaldı, elmli əshablar yetişdi. İmamın kitablarından biri hədislərdən ibarət "Səhifətür-rəzəviyyə"dir. Əshabı Əbdullah bin Əhməd İmamdan eşitdikləri hədis, dua, zkrləri bu kitabda qeyd edib. Sözsüz ki, müəllif İmam Rza, toplayanı isə əshabıdır. Digər kitabı xəlifə Məmunun suallarını cavablandırmasından ibarət 54 dəri səhifəlik kəlam elminə aid kitabdır və İbn Şöbe Hərrani "Tühəfül-uqul" əsərində onu tam şəkildə gətirib. Tarixdə daha bi kitabının adı "Risalətu təmaiş-şəriətil-Mustəfəviyyə fi usulid-din"dir. Daha üç mövcud olan kitab da vardır ki İmam Rzaya istinad verilir. Bunlardan biri "Fiqhur-Rza" digəri  "Səhifətur-Rza", bir digəri isə "Tibbur-Rza" kimi tanınan "Risalətuz-zəhəbiyyə"dir. Əlbəttə son iki kitabın İmam Rzaya və ya əshabına məxsus olmasında alimlər fikir müxtəlifliyindədir.

**İmam Rzadan sonra yenidən çətin dönəm**

və hədisin ağır günlərini yaşanır. İmam Rza şəhid edildikdən sonra yenidən basqı və təzyiqlər artdığı ən ağır bir zaman başlayır. Ümumiyyətlə İmam Rzadan sonrakı dönəm, yəni Abbasi xəlifəsi Məmunun ilahi hüccəti şəhid etməsindən ta İmam Mehdi qeybə çəkilənə qədərki dönəm, Əməvi xəlifələrindən Müaviyə ilə başlayıb Hişam bin Əbdül-məlikin ölümünə qədər ki, dönəmə çox bənzərdir, hətta deyə bilərik ki, daha qəddardır. O zaman Əməvilər məsum imamları hər hansı yolla susdurmaq qərarında idilərsə, bu dönəm artıq yalnız və yalnız qətl etmək hədəfində idilər. Ona görə İmam Rzadan sonrakı imamlar tez və gənc şəhid edildilər. Ən tez şəhid edilərək dünyadan köçən sonrakı imamımız 25 yaşlı Muhəmməd Cavad (Təqi) oldu. Ondan sonra  İmam Hadi (Əliyyən Nəqi) 42 yaşında, İmam Həsən Əsgəri 28 yaşında şəhid edildilər. İmam Mehdi isə elə əvvəldən yəni ana bətnində qeyb əlamətli idi. Atasının cənazə namazını qılmaqla 5 yaşında ikən kiçik qeyb və daha sonra indiyə qədər davam edən böyük qeybə çəkildi.

**İmam Hadı və İmam Əsgəri ilə qeyb dövrünə hazırlıq dönəmi**

başlayır. Çünki məsum imamlar vəziyyətdən hali idilər və İmam Cavadın gənc ikən şəhid olmasıyla artıq İmam Hadi daha sonra İmam Əsgəri qeyb dövrünə hazırlıq prosesinə start verir. Yer üzü hüccətsiz qala bilməz, zalımlarsa hüccətləri qətl etməkdə qətiyyətlidirlər, demək sonuncu hüccət - İmam Mehdi qeybə çəkiləcək. Bu proses İmam Baqir və İmam Sadiqin elm hərəkatına bənzər oldu. Əlbəttə ki, artıq o zamanki fürsətlər yox idi, amma İmam Baqir və İmam Sadiq etdiyi kimi islam alimləri, fəqihlər yetişdirilməli və fəqihlərin qeyb dövründə fəaliyyət yolu göstərilməliydi. Imam Hadi və daha sonra İmam Əsgəri də həm fəqihlər yetuşdirdilər, həm də qeyb dövründəki alimlərin fəaliyyət yolunu göstərdilər.

**İmam Əli və Əbu Rafedən Şeyx Müfid və Şeyx Tusiyə**

qədər uzanan hədis tarixi artıq yavaş-yavaş bitir. Qeyb dövrü ilə fəqihlərin yeni məsuliyyətlərlər dövrü başlayır. Ümumiyyətlə hədis tarixi İmam Əli və Əbu Rafelə başladı, İmam Baqir və İmam Sadiqlə təkmilləşdi, İmam Hadi və İmam Əsgəri ilə yeni yola çıxdı və bu yolun yetişdirmələri Şeyx Müfid və Şeyx Tusiylə zirvəyə çatdı. Hələ qeyd edəcəyik ki, hədis tarixi bitməsi və fəqihlərin yeni dövrünün inkişafı və qüvvətlənməsi də bu iki alimlə oldu. Amma ora hələ var.

**İmam Hadinin çox önəmli əsəri**

"Cəbr və Təfviz" kitabıdır. Bu kitab kəlam elmində önəmli əsərdir. Bin Şöbe Hərraninin "Tühəfül-uqul" kitabında tam şəkildə mövcuddur. Əlbəttə İmam Hadidən kitab qədər mənalı ""Camei Kəbirə" ziyarətnaməsi və "Qədiriyyə" ziyarətnaməsi də qalmışdır ki, dua ədəbiyyatının çox mühüm bir hissəsini təşkil edir.

**İmam Həsən Əsgəridən bir neçə kitab**

günümüzə qədər gəlib, onlardan biri hədis kitabı olan "Məvizətul-qisar" digəri kəlam elminə aid "Risalətul-munəqqəbət", digəri isə Quranın təfsirində olan "Təfsiru Həsənil Əskəri"dir. Bu əsərlər sözsüzdür ki, bu günə qədər mövcuddur və onlardan elm əhli fadalanırlar.

**Həmin dönəmin ilk alimləri**

artıq yetişmişdi və qeyb dövrünün yükünü çəkməyə hazır idilər və hətta İmam Həsən Əsgərinin zamanında artıq kitablar yazlmağa başlamışdılar. Əlbəttə ki, həmin dövrün ən böyük alimləri İmam Mehdinin kiçik qeyb dövründə görüşdüyü dörd naibi: Osman bin Səid, Muhəmməd bin Osman, Hüseyn bin Ruh, Əli bin Muhəmməd idi. Digər alimlərdən İmam Hadi və İmam Həsən Əsgərininn əshabı və yetişdirməsi Əli bin İbrahim Qumidir ki, "Təfsiri Qumi" adlı Quranın hədislərlə təfsiri kitabı mövcuddur. Müəllifin məsumlardan əlavə ilk bəhrələndiyi şəxs var, biri öz atası İbrahim bin Haşim Qummidir ki, İmam Cavadın əshablarından olub. Digər bəhrələndiyi şəxs isə Əyyub bin Nuh olub ki, oda İmam Cavadın, hətta İmam Rzanın əshablarından olub.

**Bin Babəveyh və Koleyni qeyb dövrünün böyük alimləri**

sayılır. İmam Mehdinin kiçik qeyb dövründəki naiblərin ilə eyni zamanda yaşayan bu fəqihlər - Bin Babəveyh, Koleyni ilə əslində yeni bir dövr başlayır. Artıq məsum imam insanlar arsında görünmür və onların missiyasını qismən və ya bəzi nəzəriyyələrə əsasən tam olaraq fəqihlər üstlənir. İmamlar bu dövr üçün yolu göstərmiş, xətti çəkmişdilər. Məsumlıarən zamanında olan hədisçilər, fəqihlərlə bu yeni dövrün alimlərinin fərqi məsuliyyət və cavabdehliklərində idi. Təbii ki, məsum həyatda olanda əsas məsuliyyət, ilahi missiyanın icrası onların üzərindədir. Qeyb dövründə isə birinci cərgədə artıq fəqihlər durur. Bu barədə sonda  geniş izah verəcəyik.

**"Ərbə-miə hədisləri"**

haqqında izahın vaxtı yetişdi. "Ərbə-miə" Peyğəmbərin zamanından ilkin mənbə hədis kitabları yaranana qədər, yəni Koleyni və Bin Babəveyhə qədər olan bütün hədislərə deyilir. "Ərbə-miə" - dörd yüz deməkdir, bütün qeyd olunan hədislər 400 başlıq altında tanınır və o hədislər Bin Babeveyh və Koleynidən başlayaraq, Şeyx Səduq, Bin Şöbe Hərrani ilə davam edərək Şeyx Müfid və Şeyx Tusi ilə tamamlanır, yəni "Kutub Ərbəə" kimi tanınan mənbə hədis kitabıları toplusu, əlavə "Tühəfül-uqul", "Əl-İmla" və sair həmin dönəmdə yazılan mənbə kitablarda öz əksini tapır. Daha indən belə "Ərbə-miə" hədisləri üçün bu qeyd olunan kitablara müraciət etmək kifayət edir. Bəlli olur ki, İmam Əlinin, Əbu Rafenin birbaşa Peyğəmbərdən yazdığı hədislərdən başlamış İmam Mehdiyə qədər olan

məsumların hədsiləri əsas hədis mənbəmiz olan “Kutub Ərbəə” başda olmaqla digər mənbə kitablarımızda tam əks olunub.

**Doğru hədisləri, yanlışlar rəvayətlərdən ayıran elm**

hədislərə etibarı möhkəmlədir. Yuxarıda qeyd etdik ki, Qurandan fərqli olaraq hədisin toxunulmaz qalmasında problemlər var idi. 250 - 300 il zaman kəsimində məsumların hədislərini araşdırmaq, doğru, yanlış, səhv, saxta hədisləri müəyyən etmək, mühəddsiləri - hədis söyləyənləri tanımaq, ələkdən keçirmək üçün “Dirayətul-hədis”, “Fiqhul-Hədis”, “Ricalul-hədis” və digər fənnləri əhatə edən Hədis elmi kimi mühüm və mötəbər elm ərsəyə gəlir. Əlbəttə hədisin doğruluğunu yoxlamağın ən birinci yolu mənasının ümumi olaraq Quran mənası ilə üst-üstə düşməsidir, amma yenə də bu ümumi anlamdır və əlavə araşdırmalara ehtiyac duyulur. Məsələn fiqhi hökmlərin ərsəyə gəlməsində 1) “Səhih”, 2) “Həsən”, 3) “Müvəəssəq”, 4) “Zəif” hədis bölümlərindən əsasən “səhih” hədislərə istinad edilir. “Səhih” hədis həm mənası Qurana uyğun olan, həm sənədi Peyğəmbərə çatan, raviləri ədalətli olan hədisdir. Həm hədisin mənasını, həm sənədini, həm də ravilərini yoxlamaq üçün ayrı-ayrılıqda hər biri üçün bir fənn ərsəyə gəlmişdir. Bütün bu elm və tədqiqatlar saxta hədisləri düzgün hədislərdən ayırmağa imkan verir. Etiraf edək ki, bu çox ağır və yalnız alimlərə müyəssər olan bir işdir, ona görə hədisləri dəqiq mənbələrədən öyrənmək gərəkdir.

**“Kutubu Ərbəə”**

kimi tanıdığımız “Əl-kutubu əl-ərbəə” dörd adda olan - Koleyninin “Kafi”, Şex Səduqun “Mən la yəhzuruhul-fəqih”, Məhəmməd Həsən Tusinin “Təhzibul-əhkam” və “Əl-İstibsar” əsərlərində 45 000 ə yaxın hədis var. Bunlar əhli şiə mənbələri sayılır, əhli sünnə mənbələri isə “Kutubu Sittə” kimi tanıdığımız altı adda olan hədis kitablarıdır - “Səhih Buxari”, “Səhih Muslim”, “Sünən Bin Macə”, “Sünən Əbi Davud”, “Sünən Termizi”, “Sünən Nəsai”. Həmin bu kitablarda 20 000 civarında hədisdən söhbət gedir. Əlbəttə Əhli-beyt hədisləri böyük mənbədir, ona görə “Kutubu Ərbəə” də hədis çoxdur. Sözsüz ki, Əhli-beyt hədislərinin əksəriyyətini kənara qoyanda say elə 20 000 civarında olar. Məcidud-din bin Əsir “Camiul-usul min əhadisir-rəsul” kitabında bu hədislərin təkrarlarını çıxmaqla cəmi 10 000 hədisin qaldığını qeyd edib. Əlbətə İmam Sadiqin tələbəsi Malik bin Ənəsin “Əl-Muvəttəə”, Əhməd bin Hənbəlin “Musnədu Əhməd” kitablarında Əhli-beyt imamlarından da olan on minlərlə hədis var, lakin məsumların hədislərini kənara qoyub əshablardan olan hədisləri “Kutubu sittə”yə toplayanda böyük bir

maarifdən kənar düşülür. Bunu da qeyd edək ki, Feyz Kaşani də bənzər bir iş görüb, o şiə mənbələrinə aid, “Kutub Ərbəə” və digər bir neçə hədis mənbələrini də bir yerə toplayıb və təkrar hədisləri çıxarıb, amma say o qədər də dəyişməyib və “Əl-Vafi” kitabında 50 000 hədis toplayıb.

**Fərq göz qabağındadır**

çünki, məsələn ilk üç raşidi xəlifəsindən birgə cəmi 200-ə yaxın təkrarlarla birgə hədis var, amma təkcə İmam Əlidən “Ğürərül-Hikəm və Dürərül-Kəlim” də 1000 dən çox hədis gətirilib. Odur ki, Peyğəmbər və Əhli-beytinin hədisləri böyük elmi mənbədir və Quranla bərabər İslam maarifini təşkil edir. İslam Peyğəmbərinin “sizin aranızda iki qiymətli əmanət qoyub gedirəm, birisi Quran digəri İtrətim (Əhli-beytim)” deyəndə əslində Quran və hədisi nəzərdə turudu. Bu hədis Quranın Peyğəmbərin dilindən dediyi “Mən risalətim üçün sizdən yaxınlarıma (Əhli-beytimə) məhəbbətdən başqa əcr və muzd istəmirəm” ayəsinin cavabıdır. Sözsüz ki, sevdiyinin sözünü dinləmirsənsə sevginin mənası yoxdur. Çox təəssüf ki, bəziləri bu sevgidən mərum oldu və Əhli-beytin hədislərini inkar etdilər, bəziləri isə bütövlükdə hədisi qəbullanmadılar və bununla da böyük bir ilahi maarifdən uzaq düşdülər, ən başlıcası İslamı yanlış anladılar. Məsələn sadə bir hesablama aparsaq, tarixə görə Peyğəmbərin əshabı, yəni onu görən müsəlmanların sayı ən çoxu 120 000 nəfər olub. Onlardan cəmi 10 000 nəfərin adı tarixdə var. Həmin bu 10 000 nəfərdən cəmi 978 nəfər hədis söyləyib. Bunlardan 211 nəfər hərəsi cəmi 2 hədis söyləyib, 445 səhabə cəmi bir hədis nəql edib. Hədis söyləyən qalan səhabədən ən çox hədis söyləyən Əbu Hüreyrə 5374 hədis söyləyib. Yəni 20 000 hədisdən 5374 hədis bir nəfərə aiddir. Məsələ burasındadır ki, Əbu Hüreyrə 6-cı hicri ilində İslamı qəbul edib müsəlman olub, cəmi 18 bəzi mənbələrə görə 22 ay Peyğəmbərin yanında olub, conra Bəhreynə köçüb və birdə Peyğəmbərin vəfatında - hicri 11 ci ilin ikinci ayında Mədinəyə qayıdıb. Həmin o ən çox hədis söyləyənlər işərisində İmam Əlinin də adı var 537 hədislə onuncu yerdədir. Uşaqlıqdan ölənədək Peyğəmbərin yanında olan, İslamı ilk qəbul edən, Peyğəmbərin əmisi oğlu, kürəkəni, Quranının ilk katiblərindən biri, hədisləri ilk yazanladan biri, fəziləti haqqında Peyğəmbərdən onlarla hədis söylənilən şəxs Rəsuli Əkrəmdən cəmi 537 hədis deyib?! Yuxarıda qeyd etdik ki, İmam Əlidən bizə məlum olan 10 hədis kitabı qalıb, hələ bir neçə kitab var ki, onları İmam Əlidən eşidib yazıblar, məsələn İmam Həsən Müctəbanın atasından eşidib yazdığı kitab. Xülasə, bu artıq insaf və vicdanların hökmünə buraxılası məsələdir.

**Hədis və fiqh**

Burda bir mühüm məsələ var, o da hədisin əsas istiqamətidir. Hədis əsasən fiqhə yönəlib. Fiqh - İslam hüququ, şəriət hökmləri, bir müsəlman "nə edə bilər və nə edə bilməz" suallarının cavabları, dinin əməli tərəfidir. İslamda iki əsas elmdən (kəlam - etiqad məsələləri və fiqh - şəriət hökmləri) biridir. Dinin hədəfi doğru etiqad və düzgün əməldir ki, insanlar ona riayət etməsiylə dünya və axirət səadətinə çata bilər, Allah yolunun əsas hədəfi budur. Qurani Kərimdə yuxarıda da qeyd etdiyimiz kimi cəmi beşyüz civarında, yəni müqəddəs kitabın 13 ya 14-də biri qədər fiqhi ayə var. Bunu da qeyd etdik ki, Peyğəmbərdən olan ilk İslam hədisləri və kitabları əsasən bu mövzuda olub. Məsələn Hz. Muhəmməddən olan ilk hədislər kitabı - İmam Əlinin və Əbu Rafein yazdıqları fiqh mövzusundadır. Hədisdə fiqh həmişə üstünlük təşkil edib. Çünki bu mövzunun xırdalıqları çoxdur və daim insanın fiqhə ehtiyacı ola bilər, bu anlamda ki, həyat davam etdikcə yeni-yeni fiqhi məsələlər ortaya çıxır. Məsələn "Kutubu Ərbəən"nin 45 000 yaxın hədisindən təqribən 30 000 fiqhə aiddir. Sonralar fəqihlər üçün daha əlçatan olmaqdan ötrü "Kutubu Ərbəə"  və digər mənbə hədis kitablarındakı yalnız fiqhi hədisləri 12-ci hicri əsrində yaşamış Şeyx Hürr Amili "Vəsailüş-şiə" adıyla tanınan kitabda cəm etdi. Yalnız fiqhi hədislərdən ibarət olan bu kitabda 35 000 dən çox hədis var. Bu hədislərdən əlli başlıqla (fiqhdə əsasən əlli başlıqda mövzu olur) 2500-dən çox fiqhi hökm çıxarılır və sadə insanların ixtiyarına verilir. Fiqh yeganə sahədir ki, fəqih olmayan insanlar onu bir başa ayə və hədislərdən özləri üçün öyrənib əməl edə bilməz. Əqaid, etiqadi məsələlər, əxlaq, mənəviyyat mövzuları, tarixi insan özü ayə və əxbardan öyrənib əldə edə bilər, amma fiqh belə deyil. Fəqih, 1) Quran, 2) Sünnə (Hədis), 3) İcama (alimlərin ittifaqı), 4) Əql mənbələrini ardıcıl və tərtiblə araşdırıb fiqhi hökümləri ümumistifadə üçün əldə edir. Əlbəttə elmlərin başı etiqada aid olan kəlamelmidir ki, insan özü öz etiqadını araşdırıb, dəlil sübutla üsuli-dində müəyyən etməlidir. Amma fiqhi məsələlərdə ya insan o həddə elmli olmalıdır ki, yuxarıda qeyd olunan mənbələrdən hökmü əldə edə bilsin ya da fəqihlərdən bəhrələnməlidir.  Xülasə hədis əsasən fiqhi mövzularda üstünlük təşkil edir, yəni hədissiz İslam şəriəti qanunlarını və hüququnu əldə etmək olmaz.

**Zühura qədər şəriət hakimləri**

fəqihlərdir, onların hədis mövzusuna bir başa aidiyyəti var. Yuxarıda da qeyd etdiyimiz kimi hədis tarixi Peyğəmbərin kəlamlarını İmam Əli və Əbu Rafenin qələmə almasıyla başlayıb, Şeyx Müfid və  Şeyx Tusinin nöqtə qoymasıyla tamamlanıb. Bu iki şəxs hədis tarixinin tamamlanması və fəqihliyin yeni dönəminin başlanmasını zirvəyə çatdıran iki böyük alimdir. Əvvəla ordan başlayaq

ki, qədimdə - məsumların zamanında hədsi söyləyən yəni məsumlardan hədisləri əldə edib insanlara çatdıran mühəddislərə "fəqih" deyilirdi, çünki hədislər əsasən fiqhdə olardı. Əlbəttə sonradan "fəqih" kəlməsi daha geniş anlamda - şəriət alimi mənasını daşımağa başladı, məsum imamın olmadığı dövrdə isə bu məqamın sahibləri Peyğəmbər və imamların qismən səlahiyyətlərinə üstələndi. Bu barədə geniş ayə və rəvayətlər də vardır. Peyğəmbər və İmam Əli zamanında Əbu Rafeə, Əbdullah bin Abbasa aid olmağa başlanan "mühəddis" və "fəqih" kəlmələrinin ünvanları, İmam Baqir, İmam Sadiqin vaxtında Muhəmməd bin Muslim, Cabir Cəvfi kimilərini əhatə etdi, İmam Hadi və İmam Əsgərinin dönəmində Əli bin İbrahim, Əhməd bin İshaq kimilərə aid edildi, İmam Mehdinin qeyb dövrü ilə Koleyni və Bin Babeveyhlə başlayıb, Şeyx Səduq, Hərrani ilə ayaq tutub, Şeyx Müfid, Şeyx Tusi ilə möhkəmlənib bu günə qədər, bü gündən İmam Mehdinin zühuruna qədər davam edəcək şəriət alimlərinə silsiləsinə məxsusdur. Bu mövzunu fəqihlər haqqında araşdırma ilə tamamlamaq elə bilirik ki, həm faydalı olar, həm də mövzunu təkmilləşdirər.

**Mühəddislər - fəqihlər - müctehidlər**

ardıcıllıqla beləcə davam edir. Əlbəttə bu kəlmələr içində "Fəqih" sözü daha əhatəlidir, çünki həm mühəddsilərə və həm də qeyb dövründəki İslam hüququnda nəzər - ictihad sahibi olan müctehidlərə aid olur. Bu şəriət alimləri bir zaman Peyğəmbər və imamlardan hədis söyləyirdi, onlar olmayanda isə hədisdən əldə olan hökmləri söyləyir. Biz qeyb dövrünün fəqihlərilə sözümüzə davam edəcəyik. Dini ədəbiyyatda adətən "fəqih" yaxud "fəqih camiuş-şərait" kəlmələri bütün dini şərtlərə sahib olan şəriət aliminə deyilir.

**Quran alimlərdən danışır**

və ümumi elm əhli ilə yanaşı, şəriət alimlərinə də xüsusi önəm verir. Bu alimlər Tanrının bəndələri arasından seçdiyi ilahi hüccətlərin zamanında belə olublar. Allah insanları cəhl içində qalmamağa, bilmədiklərini bilənlərdən - elm əhlindən soruşmağı çağırır, (Furqan - 59). Elm əhlinin digərlərindən üstün olduqlarını da Quran bizə göstərməklə elmin dəyərini müəyyən edir (Zümər - 9). Digər bir ayədə (Maidə - 63) isə "niyə onların şəriət alimləri və fəqihləri günah söyləməyi və haram yeməyi qadağan etməyiblər!" deməklə üləmanın vəzifələrindən və məsuliyyətinlərindən danışır. Quran təfsirçisi və əshabdan olan Abdullah bin Abbas bu ayəni öz vəzifəsini bilməyən alimləri tənqid edən ən sərt ilahi mesaj

hesab edir. Bu ayə bütün zamanlarda alimə verilən dəyər və onların məsuliyyətini müəyyən edən bir nümunədir.

### Məsumlar da alimləri bizə tanıdır

məsələn, İslam Peyğəmbəri ümumiyyətlə elmin insana dəyər verdiyini, alimlərin cəmiyyətin dəyərli varlıqları olduğunu bildirməklə məsuliyyyətlərini önə çəkir: “İnsan hər nə qədr elmdən çox bəhrələnsə o qədər dəyərlidir”. İmam Əli isə cəmiyyətin azğınlaşmasını alimlərin sükutu, və laqeydliyi ilə əlaqələndirir: “Zülm və günaha mürtəkib olub həlak olan qövmlərin  acı aqibətlərinin səbəbi sükut edən alimləri idi”.

### İlahi hüccətlərin naibləri

peyğəmbərlər və imamlar insanlar arsında olmayan zamanlarda, əsasən də məsumun gözlərdən qaib olduğu böyük qeyb dövründə məsunmların vəzifəsini qismən icra edən şəriət alimləridir. Məsələn, böyük qeyb dövründə o, gələnə qədər şəriət alimləri qismən onların məsuliyyətlərini daşıyırlar. Bu hər nə qədr cüzi və xüsusi məsələlərdə olsa da yenə də fəqihləri önə çəkir və şəriət alimlərini Peyğəmbər və imamlardan sonrakı məqama gətirir. Çünki Allah öz bəndələrinin bir sıra ümumi məsələlərinin və müşküllərinin istənilən hal və dövrdə həll olunmasını zəruri bilir və peyğəmbərlərin və imamların tanıtdırdığı yolla, gətirdiyi dinlə, ilahi şəriətlə bu problemlərin çözülməsini istəyir. Bununda icraçısı peyğəmbər və imamlar olmayan yerdə və ya onlar qeybdə olan dövrdə “fəqih camiuş-şərait” yəni bütün dini şərtlərə sahib olan şəriət alimləridir.

### “Əl-umurul-həsbiyyəh”

həmin o zəruri məsələlərdəndir. Yuxarıda qeyd etdiyimiz ümumi məsələlərə dini ədəbiyyatda “əl-umurul-həsbiyyəh” ya “umuri həsbiyyə” deyilir. Məsələn, vəsiyyət edilən şəxs olmadığı halda vəsiyyətin hökmü, yeri bəlli olmayan və yaxud üzürsüz yerə təlaqdan boyun qaçıran insanlar adından təlaq verilməsi, şəri vergilərin xərclənmə ünvanı, meyit, camaat, cümə və bayram namazlarının qılınması və sair bu qəbil məsələlərdəndir ki, bütün fəqihlərin vilayəti (idarəçiliyi) səlahiyyətindədir. Bu bir növ şəriət himayəliyi deməkdir ki, məsum olmadıqda bu fəqihlərin öhdəsindədir, buna fəqihin himayədarlıq vilayəti (idarəçiliyi) də deyilir. Bu vilayət və idarəçilik “təkvin” və “təşri” idarəçiliyindən (vilayətindən) fərlidir.

Birincisi - təkvini və yaradılış idarəçiliyi (vilayəti), bunu Allah Özü birbaşa və ya mələklər vasitəsiylə həyata keçirir. İkincisi - təşri və şəriət idarəçiliyi (vilayəti), bunu mələklər, peyğəmbərlər vasitəsilə həyata keçirir. Üçüncüsü - himayədarlıq idarəçiliyi (vilayəti), bunu peyğəmbərlər və imamlar vasitəsilə həyata keçirir.

**Əlbəttə ki, Allahın vasitəyə ehtiyacı yoxdur**

və heç nəyə və heç kəsə möhtac deyil. Lakin bəndələri Ona çatmaq üçün ilahi vasitəyə ehtiyaclıdır və  möhtacdır, odur ki, Peyğəmbər və ya imam olmayan yerlərdə və ya onlar qeybdə olanda bu idarəçiliyin cüzi bir hissəsi - umuri həsbiyyə "fəqih camiuş-şərait" yəni bütün dini şərtlərə sahib olan fəqihlərin - şəriət alimlərinin öhdəsinə düşür. Sözsüz ki, mütləq hakim, idarəçi, himayəçi Allahdır. Allah yaradır, yaratdığı üçün qanun müəyyən edir və onu himayə edir. Bütün bu prosesdə mələklər, din, səmavi kitablar, peyğəmbər və imamlar hətta fəqihlər də vasitə olur. Qeyd etdiyimiz kimi, Allahın vasitəyə ehtiyacı yoxdur, amma bəndələrin vasitəyə ehtiyacı var, bəndələrin zərfiyyəti və tutumu bunu zəruri edir. Bilirik ki, Allahın vasitəsiz rəftar etdiyi məxluqları da var, məsələn mələklər, amma insan vasitəyə ehtiyacı olan varlıqdır.  Allaha çatmaq üçün  insanın vasitəyə ehtiyacı var, amma Yaradanın bəndələri üçün müəyyən edib tanıtdırdığı vasitələrə.

**Şəriət alimində olmalı dini şərtlər**

əsasən, Quran və hədisdə nəzərdə tutulanlar bunlardır: 1) Həddi buluğa çatmaq, yəni yaşın buluğ həddində olması; 2) Ağıl sahibi olmaq, yəni ruhi xəstə olmamaq; 3) Həyatda olmaq; 4) Bioloji olaraq kişi cinsinə mənsub olmaq. Məlum olan bütün peyğəmbərlər və imamlar kişilərdən olduğu üçün belə bir şərt qeyd olunur. Əlbəttə qadınlar da fəqih, şəriaət alimi zirvəsinə yüksələ bilərlər və belə qadınlar az olmayıb, elə indi də var; 5) Halalzadə olmaq; 6) İslam etiqadında və imanında olmaq: Tohid, Ədl, Nübüvvət, İmamət, Məad əqidəli, şəriət hökmlərinə əməl edən olmaq. Çünki elmin və mədrəsələrin qapıları hər kəsin üzünə açıqdır, qeyri müsəılmanlar yaxud müsəlman düşmənləri belə bu elmlərə sahiblənə bilərlər, amma fəqih olmaq üçün İslam etiqadı və iman şərtdir; 7) Elmi baxımdan şəriət elmlərinə tam sahib olmaq və İslam elmlərində ən yüksək elmi səviyyəyələrə çatmaq: 8) Ədlaətli olmaq, zülm, haqsızlıq etməmək, böyük günahlara mürtəkib olmamaq, kiçik günahlardan uzaq durmaq, insanların bəyənmədiyi adi, mübah əməllərdən çəkinmək, həva-həvəsə yenilməmək; 9) İdarəçilik bacarığlı olmaq, çünki, müsəlmanların ümumi müşküllərini həll etmək, şəri vücuhatı istiqamətləndirmək, birgə ibadətləri yönəltmək və sair belə məsələlər müdiriyyət,

məsuliyyət, bacarıq tələb edir. Tarixən də şahid olmuşuq ki, bu xüsusiyyətə sahib olmayanlar, digər şərtlərə sahib olsalar da belə bu məqamdan geri çəkiliblər. Bu gün belə şəriət alimlərinə el arasında "mərcəi təqlid", "ayətullahul-üzma", "böyük müctəhid" deyirlər. Əlbəttə bu son 2-3 əsrin müraciət formasıdır. Qeyd etdiyimiz kimi, İslamda Peyğəmbər və imamların öz dönəmindən hədis söyləyənlərə, şəriət üzrə mütəxəssis olanlara "mühəddis", "fəqih" deyilirdi. Məsumlardan sonra "mühəddis" sözü ancaq Peyğəmbər və imamların zamanında hədis söyləyənlərə deyildi və "fəqih" kəlməsi önə çıxdı, fəqihlərin önəmi artdı və təqlid məsələləri gündəmə gəldiyi üçün bu söz daha geniş yayıldı.

**Təqlid də qeyb dövrünə aiddir**

beləki, bu kəlmə İslam hüququna - fiqh elminə müraciət etməyə deyilir. Təqlid məhz qeyd etdiyimiz belə fəqihlərə "fəqih camiuş-şərait"lərə olunur. Əlbəttə fiqhdə təqlid məsumların özünün böyük qeyb dönəmindən öncə qeybət dövrü üçün hazirladıqları bir yoldur. Bu yolu İmam Hadi və İmam Həsən Əsgəri və nəhayət kiçik qeyb dövründə İmam Mehdinin özü müsəlmanları üçün müəyyən edib. Əlbəttə bunu da qeyd edək ki, təqlid sırf fiqh və islam hüququna aiddir. Namaz, Təharət, Oruc, Zəkat, Kəbin, Həcc və sair bu kimi əməli mövzuların xırdalıqları fiqh, şəriət məsələləri və islam hüququ adlanır və bu təqlid məsələsi də Peyğəmbər və imam həyatda və ya aramızda olmadığı sürəcə aiddir.

**Şəriət alimlərini məsumların naibi edən hədislər**

vardır, hədis və mühəddis haqqında yazdıqlarımız, sözsüz ki, hədislə bitməlidir. Peyğəmbər və imamlar belə ailimlərin qeyd etdiyimiz xüsusiyyətlərini və şərtlərini xüsusi olaraq müsəlmanlara çatdırmışlar. Bir hədisdə İslam Peyğəmbəri özündən başqa dini təbliğ etdirəcək alimləri öz ilahi missiyasının canişinləri kimi yad edərək belə buyurur: "Allah mənim canişinlərimə rəhm elə" və bu cümləni üç dəfə təkrarlayır. Ondan onların kimlər olduğunu soruşanda isə buyurur: "Onlar mən olmayanda mənim söylədiklərimi və sünnəmi insanlara çatdırar və onları insanlara öyrədənlərdir" (Mən la yəhzuruhuk-fəqih, c. 4, səh. 420). Başqa bir bənzər hədisində də şəriət alimlərini peyğəmbərlərin varisləri kimi tanıtdırır: "Üləma (fəqihlər) peyğəmbərlərin varisləridir" (Kafi, c. 1, səh. 32).

İmam Əlidən olan hədis isə, yuxarıda dediyimiz mövzunu genişlədir: "Üləma (fəqihlər) xalqın arasında dini hökm edənlərdir" (Müstədrəkül-vəsail, c. 17, səh. 321). Başqa bir hədisdə İmam Əli yenə belə buyurur: "İlahi əhkamda,

müsəlmanlara aid İslam hökmlərində yalnız qabaqcadan müəyyən etdiyiniz (tanıdığınız) həyalı, təqvalı, mərifətli, şəriət hökmlərinə və Peyğəmbər sünnəsinə alim olanı seçmək vacibdir ki, o, ümumi əmlakı (beytül-malı), Həcci, cümə, şəri vergilər məsələlərini həll etsin" (Müstədrəkül-vəsail, c. 6, səh. 14).

Bu mövzuda İmam Hüseyndən də bir hədis var, bu hədis də qaranlıqlara işıq saçır, yolu aydınladır: "İnsanlar elə alimlərin arxasınca getməlidirlər ki, elmləri vəhyə əsaslansın, Allahın halal və haramında dəqiq olsunlar" (Müstədrəkül-vəsail, c. 17, səh. 315).

İmam Sadiqdən də bu mövzuda şox önəmli bir hədis var: "İnsanlar gərək diqqətli olsunlar, bizim kəlamlarımızı söyləyən fəqihlərdən halal və haramlarımızda nəzər (ictihad) sahibi olanı, Əhli-beytin hökmlərindən xəbərdar olanı fəqih kimi özlərinə seçsinlər, onu öz aralarında hakim qərar versinlər, mən məhz belə alimləri sizə hakim (şəriət hakimi) qərar verirəm" (Kafi, c. 1, səh. 67).

İmam Kazim isə fəqihlərin uca məqamından danışır: "İmanlı fəqihlər İslam üçün düşməm müqabilində şəhəri qoruyan mühafizə divarı kimidirlər" (Kafi, c. 1, səh. 38).

Bu mövzuda əsas hədislərdən biri isə İmam Həsən Əsgərinin hədisidir: "Sadə insanlar (şəriət mütəxəssisi olmayanlar) fəqihlərdən təqvalı olana, dini qoruyana, həva-həvəsilə müxalif olana, ilahi hökmlərə itaət edənə təqlid etsinlər" (Vəsailüş-şiə, c. 27, səh. 131).

İmam Mehdinin də özündən sonrakı qeyb dövründəki dini mərcələrlə bağlı hədisi var: "Qarşılaşdığınız məsələlərlə bağlı bizim kəlamlarımızın ravilərinə müraciət edin, çünki onlar sizə mənim hüccətim, mən isə Allahın hüccətiyəm" (Vəsailüş-şiə, c. 27, səh. 140). Bütün bu sadalanan hədislər fəqihlərin məqamını, səlahiyyətlərini, zühur dönəmindəki əhəmiyyətini, fəqihlik şərtlərini açıqlayır və müəyyən edir. Vəssalam!

**İslamşünas: Namiq Babxanov**

**Bakı - 2025**